

# Qarabağ və Şərqi Zəngəzur turizm üçün cəlbedicidir

**Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa və quruculuq sürətlə davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bu proses strateji əhəmiyyət daşıyır və əsas dövlət prioritetlərindən biridir.**

---

Yeni yaşayış kompleksləri, sosial obyektlər, məktəblər, xəstəxanalar və nəqliyyat infrastrukturu yaradılır. Artıq minlərlə vətəndaş doğma yurdlarına qayıdır və bu prosesin daha da sürətlənməsi üçün dövlətin bütün imkanları səfərbər edilir.

**(davamı 9-cu səhifədə)**

GÜNÜN SİYASİ NƏBZİ





# Qarabağ və Şərqi Zəngəzur turizm üçün cəlbedicidir

**(əvvəli 1-ci səhifədə)**

Ölkəmizin zəngin turizm potensialı iqtisadi artımın təmin edilməsində mühüm rol oynayır. Son illərdə turizm sektorunun inkişafı istiqamətində mühüm layihələr həyata keçirilir. Bu diyar füsunkar təbiəti, saf havası, müalicəvi suları, zəngin flora və faunası, qədim tarixi abidələri ilə həm yerli, həm də xarici turistlər üçün cəlbedici məkana çevrilir. Xüsusilə turizmin inkişaf etdirilməsi istiqamətində atılan addımlar Qarabağın və Şərqi Zəngəzurun iqtisadi potensialını daha da artıracaq. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də Ağdamda görülən işlərlə tanış olublar. "Hilton Garden Inn" hoteli Ağdam şəhərində inşa edilən 127 otaqlı, müasir standartlara uyğun 3 bloklu binadan ibarətdir. Burada konfrans və iclas zalları, restoran, banket zalları, hovuz, fitnes və









SPA mərkəzləri yaradılır. Tikinti işlərinin 60 faizi tamamlanıb və gələcəkdə burada 100-dən çox işçi çalışacaq. Yeni hotellərin inşası, turizm infrastrukturlarının yaradılması və qədim abidələrin bərpası bölgənin turizm xəritəsində xüsusi yer tutmasını təmin edəcək. Bu torpaqlara yeni nəfəs gətirən infrastruktur layihələri, müasir hotellər və xidmət sektorunun inkişafı Qarabağı turizm cənnətinə çevirəcək.

Qarabağ və Şərqi Zəngəzurun bərpası prosesi təkcə infrastrukturun yaradılması ilə məhdudlaşmır. Təhsil və sosial sahələrə də böyük önəm verilir. Azərbaycan dövlətinin əsas prioritetlərindən biri olan bu bölgələrin inkişafı, regionun gələcəyini təmin etmək məqsədilə təhsilin və müasir infrastrukturun əsasını qoymağa yönəlib. Qarabağda yeni məktəblərin, uşaq bağçalarının və universitetlərin tikilməsi, mövcud təhsil müəssisələrinin müasir tədris avadanlıqları ilə təchiz edilməsi bu bölgələrdə təhsilin keyfiyyətini artırmağı hədəfləyir. Yolların təmiri və yeni nəqliyyat sistemlərinin yaradılması, elektrik enerjisi və su təchizatı sahəsində böyük layihələrin həyata keçirilməsi Qarabağ və Şərqi Zəngəzurun bərpasında mühüm rol oynayır. Yeni evlər, iş yerləri və sosial obyektlər yaradılmaqla yanaşı, bu layihələr regionda həyat şəraitinin yaxşılaşdırılmasına, iqtisadi aktivliyin artmasına və əhalinin rifahının yüksəlməsinə imkan verəcəkdir. Təhsil və infrastruktur sahələrinə verilən bu önəm Qarabağ və Şərqi Zəngəzurun sosial-iqtisadi inkişafına əsaslı təsir göstərəcək, bölgənin daha parlaq bir gələcəyə doğru irəliləməsini təmin edəcək.

Prezident İlham Əliyev "Azərişıq" ASC-nin inşa etdiyi Ağdam Regional Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin də açılışında iştirak edib. Mərkəz şəhərin elektrik təchizatını təmin etməklə yanaşı, real vaxt rejimində rəqəmsal idarəetməni həyata keçirəcək. Burada beynəlxalq tədbirlərin keçirilməsi üçün şərait yaradılıb, elektroenergetika sahəsində ixtisaslı kadrların hazırlanması, bərpaolunan enerji mənbələrinin tətbiqi üzrə təlimlər təşkil ediləcək. Ağdam Muğam Mərkəzi isə 1,4 hektar ərazidə yerləşir. Mərkəzdə 507 yerlik konsert zalı, kafe, kinozal, kitabxana, rəqs və dərs otaqları, sərgi salonu və 1250 kvadratmetrlik açıq amfiteatr inşa edilib. Tikinti işləri yekunlaşmaq üzrədir. Muğamın inkişafı və təbliği üçün burada geniş imkanlar yaradılıb. Xatırladaq ki, hər iki layihənin təməli 2023-cü il mayın 2-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən qoyulub.

Ağdamda yenidənqurma prosesi çərçivəsində yeni yaşayış kompleksləri və məktəblərin inşası davam edir. Şəhərin bərpası çərçivəsində, sakinlərin rahat və müasir şəraitdə yaşaması üçün genişmiqyaslı layihələr həyata keçirilir. Burada müasir infrastruktur yaradılır, yaşıllıqlar salınır və ətraf mühitə uyğun ekoloji həllər tətbiq edilir. Kompleksin daxilində uşaq bağçaları, ticarət mərkəzləri və digər sosial obyektlər də fəaliyyət göstərəcək. Təhsil sahəsində də irəliləyişlər nəzərə çarpır. Ağdamda bir neçə yeni məktəb binasının istifadəyə verilməsi nəzərdə tutulur. Bu məktəblər ən son texnologiyalarla təchiz ediləcək, laboratoriyalar, kitabxanalar və idman zalları şagirdlərin istifadəsinə veriləcək.

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva fevralın 18-də "Ağdam Residence" yaşayış kompleksində yaradılan şəraitə baxış keçirib, 1268 mənzilli 2-ci yaşayış kompleksində görülən işlərlə tanış olublar. Hər iki layihədə müxtəlif ölçülü mənzillər, sosial-məişət obyektləri və abadlıq nəzərdə tutulub. Prezident və birinci xanım Ağdamda 160 yerlik körpələr evi-uşaq bağçasının və 960 şagird yerlik 1 nömrəli tam orta məktəbin tikinti prosesinə baxıblar. Hər iki obyekt Böyük Qayıdış proqramı çərçivəsində inşa edilir və müasir standartlara uyğun qurulur. Dövlət başçısı və birinci xanım Əsgəran qala-kompleksinin konsepsiya layihəsi ilə də tanış olublar. Burada tarixi abidənin konservasiyası, arxeoloji qazıntılar, turizm və mədəni tədbirlər üçün infrastrukturun yaradılması planlaşdırılır. Bu bərpa işləri Azərbaycanın milli-mədəni irsinin qorunmasına və turizm potensialının inkişafına xidmət edir.

Azərbaycan Prezidenti İlham Əliyev fevralın 19-da Xankəndidə əsaslı təmir və bərpadan sonra "Bulud" hotelinin açılışında iştirak edib. Beşmərtəbəli, 5325 kvadratmetr sahəsi olan hotel 45 nömrə ilə 91 qonaq qəbul edəcək. Burada "Lobby lounge", kafe, açıq və qapalı restoranlar fəaliyyət göstərəcək, 50 nəfər işlə təmin olunub. Həmin gün Prezident İlham Əliyev Xankəndidə Zəfər parkının təməlini qoyub və Azərbaycan-Özbəkistan birgə müəssisəsi olan Xankəndi tikiş fabrikinin fəaliyyəti ilə tanış olub. Ölkə başçısı Xocalı rayonuna da səfər edib, Ballıca kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olub, kəndə köçən bir qrup sakinlə görüşüb.

2024-cü il noyabrın 8-də Bakıda Zəfər parkının açılışında iştirak edən Prezident İlham Əliyev demişdi: "Bu gün Zəfər Günündə şəhərimizin ən gözəl yerlərindən birində Zəfər parkı açılıb. Gözəl Zəfər tağı, Zəfər abidəsi, ərazisi 10 hektara yaxın olan gözəl park, onun aşağısında Zəfər muzeyi artıq inşa edilib, onun tərtibatı gedir. Gələcəkdə Zəfər muzeyi də olacaq. Bu gözəl yerdə şəhərimizin, yenə də deyirəm, ən gözəl yerlərindən birində bu gün bizim parlaq Zəfərimizi əks etdirən yeni simvolumuz artıq yaradılıb". Xankəndidə İkinci Zəfər parkının təməlinin qoyulması göstərir ki, Azərbaycan Qarabağın və Şərqi Zəngəzurun gələcəyini qurmaq istiqamətində irəliləyişlərə imza atır. Park, həmçinin Azərbaycan xalqının böyük zəfərini əbədiləşdirən və tarixə yazılan bu şanlı qələbənin təntənəsidir. Bu cür infrastruktur layihələri ölkənin gücünü, qətiyyətini və tarixi irsini daha da möhkəmləndirir, eyni zamanda xalqın birliyini, müstəqilliyinə və əzmkarlığına stimul verir.

Keçən il iyulun 5-də Prezidenti İlham Əliyevin iştirakı ilə Xankəndi şəhərində əsaslı təmir və bərpadan sonra "Qarabağ" hotelinin açılışı olub. Xankəndidəki hotelin açılışı vaxtilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla Prezident İlham Əliyev arasında Cıdır düzündəki məşhur dialoqu bir daha yada salmışdı. Ölkə başçımız bir istiqaməti göstərərək Ərdoğana "İki qayanın arasındakı yer ki, var. Orası Xankəndi şəhəridir" demiş, Ərdoğan isə "hotel oradamı?" sualını vermişdi. İlham Əliyev ürəkdən gülərək "Hayır, hayır. Amma orada da olacaq...", - deyə cavab vermişdi. Bu gün Prezident İlham Əliyev artıq Xankəndidə bir çox hotelin açılışı ilə vədinə əməl etməyə davam edir. Xankəndidə hotellərin açılışı Prezident İlham Əliyevin dediyi sözlərin gerçəyə çevrildiyini bir daha sübut edir: "Orada da olacaq!" və artıq var!

Qarabağ və Şərqi Zəngəzur sürətlə canlanmağa başlayır. Bu məqam uzaqgörən siyasətin və Qarabağın bərpasına verilən qətiyyətli töhfənin bariz nümunəsidir. Cıdır düzündəki həmin məşhur dialoq Azərbaycan xalqının yaddaşına qələbənin və gələcək inkişafın rəmzi kimi həkk olunmuşdu. İndi isə o sözlər real inkişafa çevrilib. Xankəndi şəhərinin canlanması infrastrukturun bərpası və Qarabağın inkişafı istiqamətində atılan önəmli addımlardan biridir. Bu həm də bölgənin iqtisadi potensialının gücləndirilməsi, turizmin təşviqi və yeni iş yerlərinin açılması deməkdir. Bu proses, Qarabağ və Şərqi Zəngəzurun hər bir guşəsinin abadlaşması və yeni həyatla qovuşması ilə davam edəcək.

**Nurcan SÜLEYMANOVA,**
**"Respublika".**